Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 64 saylı Sabirabad ikinci seçki dairəsi üzrə Moranlı bələdiyyəsi üzvlüyünə namizəd Təhməzov Yavər Xəlil oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 267 saylı müraciəti üzrə

RƏYİ

Bakı şəhəri 09 yanvar 2010-cu il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 64 saylı Sabirabad ikinci seçki dairəsi üzrə Moranlı bələdiyyəsi üzvlüyünə namizəd Təhməzov Yavər Xəlil oğlu və digərlərinin 2009-cu il dekabrın 29-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Seçki Məcəlləsinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan müddətdə verildiyindən araşdırmaya qəbul edilmişdir.

64 saylı Sabirabad ikinci seçki dairəsi üzrə Moranlı bələdiyyəsi üzvlüyünə namizəd Təhməzov Yavər Xəlil oğlu və digərləri müraciət edərək, Moranlı bələdiyyəsi üzrə 10, 11 və 12 saylı seçki məntəqələrində səslər hesablanarkən məntəqə seçki komissiyaları tərəfindən saxtakarlığa yol verildiyini bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında mənim vəsatətim əsasında Mərkəzi Seçki Komissiyası tərəfindən qərar qəbul edilmişdir.

Araşdırma prosesində namizəd Təhməzov Yavər Xəlil oğluna məxsus telefon vasitəsilə onunla əlaqə saxlanılmış və əlavə sübutlar təqdim etmək barədə hüquqları ona izah edilmişdir.

O, bildirmişdir ki, ərizədə göstərdiyi faktlardan başqa sübutlara malik deyildir.

Həmçinin mövcud müraciətlə bağlı tərəfimdən zərurət yarandığından yerində araşdırma aparılmış, müraciət üzrə adları göstərilən bütün şəxslər dinlənilmiş və onlardan müvafiq izahatlar alınmışdır. Bu izahatların heç birində müraciətdə iddia olunan faktlar sübuta yetirilməmişdir.

Göstərilənlərlə yanaşı 64 saylı Sabirabad ikinci seçki dairəsi dairə seçki komissiyasının sədri Ş.İmanovun və komissiya üzvlərinin, 64 saylı Sabirabad ikinci seçki dairəsinin 10, 11 və 12 saylı seçki məntəqələrinin məntəqə seçki komissiyaları üzvlərinin, bələdiyyə üzvlüyünə seçilməmiş namizədlər V.İ.Əzimov, D.F.Ağayev, E.M.Heydərov, müşahidəçilər Quliyev Yusif Ağalar oğlu, Atakişiyev Xəyyam Rəsul oğlu, Mikayılov Aqil Balamirzə oğlu, Həsənova Məleykə Hafis qızı, E.A.Mansurov, F.A.Mehdiyev, E.S.İmanov, B.D.Əliyev, R.S.Rəsulov, Ə.R.Rzayev və məşvərətçi səs hüquqlu üzv Nadirov Əlifağa Mirzəağa oğlunun verdikləri izahatlardan Moranlı bələdiyyəsinə seçkilərdə səsvermənin qanunvericiliyin tələblərinə uyğun surətdə keçirildiyi, səsvermə prosesinə müraciətdə göstərilən şəxslərin heç bir müdaxiləsinin olmadığı, seçki qutularının açılması və səslərin hesablanması zamanı heç bir qanun pozuntusuna yol verilmədiyi, müvafiq seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair yekun protokolun dərhal tərtib edilərək, ictimailəşdirildiyi təsdiq olunmuşdur. Eyni zamanda 64 saylı Sabirabad ikinci seçki dairəsi dairə seçki komissiyasının sədri Ş.İmanovun və komissiya üzvlərinin izahatlarında müraciət edən şəxslərin adlarından Moranlı bələdiyyəsinə seçkilərlə bağlı müvafiq dairə seçki komissiyasına heç bir şikayət və müraciətin daxil olmadığı da göstərilmişdir.

Araşdırma nəticəsində müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır.

Bu səbəbdən də müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın" 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən rəyə gəldim:

1. Vətəndaş Təhməzov Yavər Xəlil oğlu və digərlərinin 29 dekabr 2009-cu il tarixli 267 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 24 saat müddətində dərc olunsun və surəti aidiyyəti şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov